**UOT 069.**

**Fuad Məşədi oğlu Rüstəmli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**magistrant**
**E-mail: fuadrhustamli@gmail.com**

# H.Z.TAĞIYEVİN EV-MUZEYİNİN YARADILMASI

**Xülasə:** Məqalədə H.Z.Tağıyevin ev-muzeyinin yaradılması, komplektləşdirilməsi, inkişafı və yenidənqurma işləri haqqında məlumat təqdim edilir.

Hacı Zeynalabdin Tağıyev XlX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın tanınmış şəxsiyyəti və xeyriyyəçisi olmuşdur. H.Z.Tağıyevin Azərbaycanın iqtisadiyyatı, mədəniyyəti və mədəni inkişafında böyük xidmətləri olmuşdur. O, bir çox sahələrdə müasir Azərbaycanın inkişafına töhfələr vermişdir desək, səhv etmərik. Azərbaycan tarixi və mədəniyyətində əhəmiyyətli dərəcədə böyük rolu olan H.Z.Tağıyevin xatirəsinin əbədiləşdirilməsi həyata keçdi. Belə ki, 2007-ci ildə Azərbaycanın məşhur xeyriyyəçisi ,ictimai-siyasi xadimi Hacı Zeynalabdin Tağıyevin xatirəsini əbədiləşdirmək məqsədilə onun yaşadığı evdə yerləşən Milli Azərbaycan Tarixi Muzeyinin tərkibində doqquz otaqdan ibarət ev-muzeyi yaradılmışdır.

**Açar sözlər:** xeyriyyəçi, H.Z.Tağıyev, xatirə muzeyi, Milli Azərbaycan tarixi muzeyi

Hacı Zeynalabdin Tağıyevin həyat və yaradıcılığı bir sıra alimlərin tədqiqat obyektinə çevrilmişdir. Tədqiqatlarda çox vaxt biz "Millətin atası" fikrinə rast gəlirik. Bu təsadüfi deyil, çünki rəsmi məlumatlar bu fikri bildirməyə icazə verir. XIX əsrin sonları – XX əsrin əvvəllərində yaşamış ictimai-siyasi xadim, sahibkar, mesenat H.Z.Tağıyev Bakıda, İçərişəhərdə, başmaqçı Məhəmmədtağı Tağıyevin ailəsində dünyaya gəlmişdir. H.Z.Tağıyevin iqtisadi fəaliyyəti haqqında danışarkən onun energetika, yüngül sənaye, rabitə, torpaq sahələrinin, mülklərin və başqa daşınmaz əmlakların ticarəti ilə bağlı əməliyyatlarını qeyd etmək mümkündür (2, s.11).

Azərbaycanın mədəni və sosial inkişafında H.Z.Tağıyevin xidmətləri sovet dövründə qiymətləndirilməmişdir. 2007-ci ildə H.Z.Tağıyevin ev-muzeyi yaradılmışdır. Milyonçu H.Z.Tağıyevin yaşadığı evində müasir dövrdə Azərbaycan Tarix Muzeyi yerləşib. Bu muzey 1920-ci ildə əsası qoyulmuş və ilk dönəmlər "İstiqlal – Ana yurdun tədris muzeyi" adlanmışdır (7). 1920-ci ilin oktyabr ayından isə o, dövlət muzeyi statusu almışdır, 2006-cı ildən də rəsmən Dövlət Tarix Muzeyi ismini almışdır. 2005-ci ildən sonra isə muzeyə milli muzey statusu verilmişdir. 2004-2007-ci illər arasındakı dövrdə təmir-yenidənqurma işləri olduqdan sonra muzeydə yeni ekspozisiyanın əsası qoyulmuş və Hacı Zeynalabdin Tağıyevin ev-muzeyi açılmışdır. Yüzlərlə ziyalı və xeyirxah insanlardan biri kimi Hacı Zeynalabdin Tağıyevin xatirəsi bu gün Azərbaycan xalqı və dövləti tərəfindən uca tutulur, ehtiramla anılır. Qəlbi daim xalq və vətən üçün döyünmüş Hacı Zeynalabdin Tağıyevin parlaq

xatirəsi və bəşəri ideyaları hələ çox qərinələr boyu qədirbilən insanlar tərəfindən böyük hörmət və ehtiramla anılacaqdır.

Milli Azərbaycan Tarixi Muzeyinin indiki binası H.Z.Tağıyevin ailəsinin yaşadığı mülk olub. Bakı şəhərinin baş memarı olan İ.V.Qoslavskinin (1865-1904) layihəsinin əsasında inşa olunan H.Z.Tağıyev sarayı Bakı şəhərinin ən əzəmətli binalarından biri olmuşdur. Bütün bunlara baxmayaraq XX əsrin 90-cı illərində H.Z.Tağıyevin xatirəsi bu binada yox idi (3, s.10).

İllər keçdikdən sonra H.Z.Tağıyevin ev-muzeyinin açılması üçün tədbirlər planı işlənməyə başladı. 30 dekabr 2004-cü ildə Azərbaycan Tarixi Muzeyinin həyatında çox mühüm, hətta onun fəaliyyətində dönüş nöqtəsi sayıla biləcək bir hadisə baş verdi. Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev muzeyi ziyarət etdi. Dövlət başçısı bir əsrdən çox yaşı olan binanın vəziyyəti ilə tanış oldu, onun əsaslı təmirə ehtiyacı olduğunu vurğuladı. Muzeyin zalları və birinci mərtəbədə təşkil olunan ekspozisiya ilə tanış olan prezident qeyd etdi ki, muzeyin təmiri zamanı hər bir memarlıq elementi və ən əsası, binanın orijinal görkəmi saxlanılmalıdır (6).

Muzeyin direktoru akademik Nailə Vəlixanlı məlumat verdi ki, təmir işləri başa çatdıqdan sonra Hacı Zeynalabdin Tağıyevin vaxtilə yaşadığı otaqların bir neçəsində onun ev-muzeyinin yaradılması nəzərdə tutulub. Muzey rəhbərliyinin təşəbbüsünü dəstəkləyən Prezident İlham Əliyev H.Z.Tağıyevin xatirəsinə olan hörmətini ifadə etmişdir (3, s.17). Ümumilikdə götürdükdə muzey respublika rəhbərliyinin müstəqillik dövründə daim diqqət mərkəzində olmuşdur.

Prezidentin muzeyə gəlişi, onun burada səsləndirdiyi fikirlər qəti inam yaratdı ki, Azərbaycan dövləti elm və mədəniyyət ocağının xilası üçün bütün qayğıları öz üzərinə götürəcək. Prezidentin muzeyin ağır durumu ilə əyani tanışlıqdan sonra tez bir zamanda təmirin başlanması haqqında göstəriş verməsi onun Azərbaycanın tarixinə, mədəniyyətinə şəxsən diqqət göstərməsinin və eyni zamanda Azərbaycan dövlətinin artan iqtisadi gücünün əyani sübutu idi. 2005-ci il yanvarın 15-də əsaslı təmir və bərpa işlərinin başlanması ilə əlaqədar Azərbaycan Tarixi Muzeyi tamamilə bağlandı. Artıq qeyd edilidyi kimi, dövlət başçısının tapşırığında binanın həm xarici, həm də daxili orijinallığının qorunması nəzərdə tutulurdu. İndiyədək aparılan yüngül təmir zamanı otaqların ilkin görünüşü tamamilə dəyişdirilmişdi. Amma mütəxəssislərin hazırladıqları layihələrdə otaqların əvvəlki vəziyyətinin bərpası planlaşdırılırdı. Bununla yanaşı, muzeyin binasında Şərq memarlığına xas çox incə və zəngin naxışlar olduğuna görə, yerli mütəxəssislərin belə zərif bərpa işləri aparmağa imkanları yox idi. Ona görə də Şirvanşahlar sarayının bərpasında işləyən İtaliyanın "Eleca" şirkətinin nümayəndələri muzeydəki bərpa prosesinə cəlb olunmuşdular (3, s.18).

2005-ci ilin noyabrında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Tarixi Muzeyinə "milli" status verildi. 2006-ci ildə Milli Azərbaycan Tarixi Muzeyinin yeni beşillik (2006-2010) fəaliyyət planı təsdiq edildi. Planda ekspozisiya sahəsinin dəyişdirilməsi nəzərdə tutulmuş, H.Z.Tağıyevin ev-muzeyinin təşkili ilə əlaqədar ekspozisiyanın 1920-ci ildə – Azərbaycan Cümhuriyyətinin süqutu ilə başa çatdırılması qərara alınmışdı (3, s.20).

2007-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Azərbaycan Tarixi Muzeyinin açılışında iştirak etmişdir. Milli Azərbaycan Tarixi Muzeyində aparılan işlər ilə tanış olan prezident İlham Əliyev yeni ekspozisiyanın bir hissəsini, həmçinin Hacı Zeynalabdin Tağıyevin ev-muzeyini gəzmiş və əldə edilmiş nailiyyətlərdən razılığını bildirmişdir. Prezident İlham Əliyevin muzeyin fəxri qonaqlar kitabında qeyd etdiyi sözlər onun Azərbaycan mədəniyyətinə, muzeyşünaslığına, xalqın mənəvi irsinə münasibətini bir daha göstərirdi.

Azərbaycan Prezidenti milli mədəniyyətimizə olan qayğısını bir qədər sonra yenidən təsdiqlədi. O, muzey rəhbərliyinin xahişinə cavab olaraq 2008-ci ilin fevralında Milli Azərbaycan Tarixi Muzeyinin maddi-texniki bazasının yaxşılaşdırılması tədbirləri haqqında sərəncam imzaladı. Sərəncama əsasən, nadir tarixi əşyaların alınması və mövcud eksponatların bərpası üçün Prezidentin Ehtiyat Fondundan muzeyə 1 milyon manat vəsait ayrıldı. Bu mühüm qərar həm də onunla əlaqədar idi ki, 2008-ci ilədək muzeyə alqı-satqı məqsədilə çox cüzi vəsait ayrılırdı və həmin səbəbdən qiymətli, nadir tarixi əşyalar əldən çıxır və xalqın sərvəti olan muzeydə olmaq əvəzinə ayrı-ayrı şəxslərin evlərində qalır, ya da kolleksionerlər tərəfindən alınırdı. Zəmanənin təsirindən, bəzən də saxlanma şəraitinin pis olması səbəbindən xarab olan, məhvə məhkum qalan eksponatların bərpasına isə ümumiyyətlə vəsait ayrılmırdı və bu iş muzeyin məhdud daxili imkanları hesabına həyata keçirilirdi. Prezidentin ayırdığı 1 milyon manatdan 516 min manata 2449 ədəd yeni eksponat alınmış, qalan vəsaitə isə 240 ədəd material bərpa olunmuşdu.

H.Z.Tağıyevin ev-muzeyinə daxil olan otaqların, əşyaların, mebellərin bərpası ilə məşğul olan Azərbaycan və İtaliya alimləri H.Z.Tağıyevin ailəvi şəkilləri əsasında otaqların əvvəlki formasını bərpa edə bilmişlər. H.Z.Tağıyevin ev-muzeyinin içindəki otaqlar bunlardır: 1) H.Z.Tağıyevin iş kabineti, 2) Şərq zalı, 3) şəxsi kitabxana, 4) bilyard-əyləncə otağı, 5) yemək otağı, 6) məlumat otağı, 7) Sona xanım Tağıyevanın bəzək otağı – buduar, 8) yataq otağı, 9) təmizlik otağı (6).

H.Z.Tağıyevin ev-muzeyinin ekspozisiyası onun iş kabinetindən başlayır. İş kabineti özünün sadə gözəlliyi ilə fərqlənir. Onun bütün divarları qırmızı ağaclardan hazırlanmış panellərlə və tünd naxışlarla işlənmişdir. Bu hissədə birbaşa Hacının özünə məxsus olan iş stolu, kitab şkafı, kreslo, stul və dolabla birlikdə köhnə ailəvi fotoalbom əsasında hazırlanmış digər qədim əşyalar da vardır. Hacının kitab şkafında Rusiya imperiyasının qanunlar toplusu, məlumat kitabları, müxtəlif ensiklopediyalar qorunur.

H.Z.Tağıyevin ev-muzeyinin yeni ekspozisiyasında böyükölçülü monitorda (touch screen) onun sahibkarlıq və ictimai-siyasi fəaliyyəti, Azərbaycan ərazisində və onun sərhədlərindən kənarda etdiyi xeyriyyə işləri, ailəsi haqqında məlumatlar daxil edilib. Bu məlumatlar 3 dildə – Azərbaycan türkçəsi, ingilis dili və rusca göstərilir (5, s.67).

Ev-muzeyinin açılmasından sonra əsas məsələ H.Z.Tağıyevlə bağlı əşyaların və tarixi sənədlərin toplanması olmuşdur. 2013-cü ildə Cəfər Cabbarlının ev-muzeyinin

direktoru Gülarə Cabbarlı H.Z.Tağıyevin qızı Sara Tağıyeva-Sarayevanın vaxtilə topladığı qiymətli sənədləri Milli Azərbaycan Tarixi Muzeyinə hədiyyə etmişdir. 183 səhifədən ibarət qovluqda Hacının xeyriyyəçilik, sahibkarlıq fəaliyyətini əks etdirən arxiv sənədlərinin və qəzet materiallarının surətləri, Sara xanımın atasının layiqli adının bərpası üçün apardığı mübarizənin ayrı-ayrı məqamlarını özündə ehtiva edən məktubları və məqalələri cəmlənmişdir (8).

H.Z.Tağıyevin ev-muzeyində yenidənqurma işlərinin aparılması müasir dövrün əsas tələblərindəndir. Azərbaycan ərazisində sərt karantin rejiminin yumşaldılmasından sonrakı dövrdə (17 iyun 2020-ci il) Milli Azərbaycan Tarixi Muzeyinin daxilində fəaliyyət göstərən ev-muzeyinin təmir və yenidənqurma işlərindən sonra açılış mərasimi keçirilmişdir (7).

## Ədəbiyyat siyahısı:

**1.** Babayeva A.H. Z.Tağıyevin xatirə muzeyi: Milli Azərbaycan Tarixi Muzeyində neft milyonçusu, məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə aid 8 otaqdan ibarət memorial muzeyin yaradılması haqqında // Mədəni-maarif. – 2010. - № 12. –Dekabr. – s.77-80.
**2.** Bəşiroğlu Ə. Hamının sevimlisi (H.Z.Tağıyev haqqında).Bakı -"Təknur"- 2012.111 s.
**3.** Cabbarov F. Milli Azərbaycan Tarixi Muzeyinin 2000-2020-ci illərdə fəaliyyətinə dair. Milli Azərbaycan Tarixi Muzeyi - 2020. Bakı, "Elm və təhsil", 2020, (səh.12-28)
**4**. Fərəcov S. Milyonçu və zəngin mənəviyyat sahibi: Hacı Zeynalabdin Tağıyevin xatirə muzeyindən təəssürat // Mədəniyyət. - 2018. - 24 yanvar. - № 6. - s.10.
**5.** Hacı Zeynalabdin Tağıyev sarayı / Tərtibçilər: M.Zeynalova, A.Rüstəmbəyova. Bakı: Elm və təhsil, 2020, 144 s. (Azərbaycan və ingilis dillərində).

## İnternet resursları

**6.** Hacı Zeynalabdin Tağıyevin ev-muzeyi. http://azhistorymuseum.gov.az/az/about/1 (müraciət tarixi 25.03.2024)
**7.** Hacı Zeynalabdin Tağıyevin ev-muzeyinin bərpa və yenidənqurma işlərindən sonra açılışı olub. https://www.medeniyyet.az/page/news/52942/.html?lang=az (müraciət tarixi 25.03.2024)
**8.** Muzeydə Hacı Zeynalabdin Tağıyevə aid yeni sənədlər aşkarlanıb. http://azhistorymuseum.gov.az/az/news/597 (müraciət tarixi 25.03.2024)

**Fuad Mashadi oglu Rustamli**

# CREATION OF H.Z. TAGHIYEV'S HOME MUSEUM

**Summary:** Haji Zeynalabdin Taghiyev was a well-known rich businessman and political personality of XIX-XX century Azerbaijan. Mainly, his name is mentioned in connection with the great services rendered in the fields of economy, culture and cultural development. He is a person who contributed to the development of modern Azerbaijan in many fields and made great social contributions. From this point of view, the perpetuation of H.Z. Taghiyev's memory is relevant from the point of view of the modern history of Azerbaijan. A memorial museum consisting of 9 rooms was created in the Historical Museum. The article will provide detailed information about the creation, completion and development of H.Z. Taghiyev's memorial museum.
**Keywords:** Philanthropist, H.Z. Taghiyev, home museum, National Museum of Azerbaijan History

**Фуад Мешади оглы Рустамлы**

# СОЗДАНИЕ ДОМА-МУЗЕЯ Г.З.ТАГИЕВА

**РЕЗЮМЕ:** В статье представляется подробная информация о создании дома-музея Гаджи Зейналабдина Тагиева, о его комплектовании, развитии и реконструкции. Г.З. Тагиев был известным меценатом и политическим деятелем Азербайджана в конце XIX- начале XX веков. Его заслуги в области экономики, науки, культуры неоценимы. В 2007 году в целях увековечения памяти Гаджи Зейналабдина Тагиева, известного филантропа и общественно-политического деятеля Азербайджана, в доме, где находится Национальный музей истории Азербайджана, а раньше жил Г.З. Тагиев, был создан девятикомнатный дом-музей.
**Ключевые слова:** благотворитель, Г.З.Тагиев, дом-музей, Национальный музей истории Азербайджана

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.06.2024**